

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 212 (21.364)

30 oktyabr 2015-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 29-da Hindistan Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sanjay Rananın etimadnaməsini qəbul edib.

Səfir fəxri qarovul dəstəsinin qarşısından keçib.

Sanjay Rana etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib.

Sonra Azərbaycan Prezidenti səfirlə söhbət edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 29-da Misir Ərəb Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Suzanne Mohamed Gamilin etimadnaməsini qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci il 29 oktyabr tarixli Sərəncamı ilə kənd təsərrüfatının inkişafında xidmətlərinə və dövlət qulluğunda səmərəli fəaliyyətinə görə bir qrup kənd təsərrüfatı işçisi təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşları da vardır.

**Abdullayev Əyyub Vəzir oğlu**

"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə

**İbrahimov Əlövsət Vəli oğlu**

"Tərəqqi" medalı ilə təltif edilmişlər.

## Heydər Əliyev Universitetinin növbəti məşğələsi

Naxçıvan Dövlət Universitetinin nəzdindəki Heydər Əliyev Universitetinin 200-cü məşğələsi keçirilmişdir. "Heydər Əliyev: dahi şəxsiyyət, müdrik xilaskar" mövzusuna həsr olunmuş məşğələni universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov giriş sözü ilə açaraq ümummilli lider Heydər Əliyevin Azərbaycanın müstəqilliyinin qorunub saxlanılmasındakı tarixi xidmətlərindən bəhs etmişdir. Qeyd olunmuşdur ki, məhz ulu öndərin siyasi kursunun qətiyyətlə davam etdirilməsi nəticəsində bu gün ölkəmiz davamlı şəkildə tərəqqi etməkdədir. Rektor vurğulamışdır ki, Heydər Əliyev ideyalarına sadiqlik, bu dahi şəxsiyyətin siyasi irsinin təbliği ziyalıların mənəvi borcudur.

Məşğələdə ali təhsil ocağının tərbiyə işləri üzrə prorektoru, fəlsəfə elmləri doktoru, professor Məmməd Rzayev "Ulu öndər Heydər Əliyev və Azərbaycan" mövzusunda məruzə etmişdir. O bildirmişdir ki, Naxçıvan Dövlət Universitetinin Elmi Şurasının 1997-ci il 6 mart tarixli qərarı ilə yaradılan Heydər Əliyev Universiteti tələbə-gəncliyə müstəqil dövlətçiliyimizin ideoloji aspektlərini elmi əsaslarla aşılayan siyasi-mənəvi tərbiyə qurumudur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 1997-ci il aprel ayının 5-də keçirilmiş ilk məşğələdə "Heydər Əliyevin həyatı və fəaliyyəti universitetdir" mövzusunda çıxış edərək bu siyasi tərbiyə məktəbinin qarşısında duran vəzifələri müəyyən etmişdir. Heydər Əliyev Universitetinin məşğələlərində respublikanın, dünyanın tanınmış elm, siyasət xadimlərinin, diplomatlarının iştirak və çıxışları böyük maraq doğurmuşdur.



Məmməd Rzayev görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycançılıq ideologiyasının təşəkkülündə, milli özünüdərk və milli-mədəni intibahın yüksəlişində, Azərbaycançılığın milli dövlətçilik ideologiyası kimi sistemləşdirilib ümummilli məfkurə, dünya azərbaycanlılarının ideologiyası, milli birlik təliminə çevrilməsindəki misilsiz rolundan geniş bəhs etmişdir. Vurğulamışdır ki, çoxəsrlik qədim tariximizin, milli mədəniyyət və ədəbiyyatın, ana dilinin təbliği və yaşadılması məhz xalqımızın böyük oğlu Heydər Əliyevin adı ilə bağlıdır.

Univeristetin İqtisad fakültəsinin dekan müavini, iqtisad üzrə fəlsəfə doktoru Teymur Abbasov "Ümummilli liderimiz Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı" adlı məruzəsində ulu öndərin iqtisadi inkişaf konsepsiyasından danışmışdır.

Yeni Azərbaycan Partiyası Universitet şəhərciyi ərazi ilk təşkilatının sədri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Kamal Camalov "Ulu öndər Heydər Əliyev və Azərbaycan təhsili" mövzusunda məruzə edərək məşğələ iştirakçılarının diqqətinə çatdırmışdır ki, müdrik siyasətçinin rəhbərliyi ilə müstəqillik illərində "Təhsil haqqında" Qanun qəbul edilmiş, yeni təhsil müəssisələri açılmış, təhsil işçilərinə dövlət qayğısı artırılmışdır. Elmin, təhsilin inkişafı bu gün də dövlət siyasətinin prioritet istiqamətlərindən biridir.

Məşğələnin sonunda bir qrup tələbəyə Yeni Azərbaycan Partiyasının üzvlük vəsiqələri təqdim olunmuşdur.

**Mehriban SULTAN**

## Şərur şəhərində təhsil ocaqları üçün yeni binalar inşa edilir

***Bu gün muxtar respublikamızda, eləcə də Şərur rayonunda təhsilə göstərilən qayğı, bu sahədə həyata keçirilən islahatlar çərçivəsində aparılan quruculuq tədbirləri nümunə gücündədir.***

Bu tədbirlərin davamı olaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamına əsasən yaradılan Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyin tədris binasında yenidənqurma işləri aparılır, lisey üçün yataqxana binası inşa edilir. Zirzəmi ilə birlikdə 5 mərtəbədən ibarət olan lisey binasının yenidən qurulması "Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçılarına həvalə edilib. Burada yenidənqurma işlərinə başlanılmasından ötən müddət ərzində binanın fasadında üzləmə işləri aparılıb, interyer müasir tələblər səviyyəsində dizayn edilib, kommunikasiya xətləri yenilənib. Artıq obyektdə son tamamlama işləri aparılır, binanın ərazisi abadlaşdırılır, işıqlandırma sistemləri quraşdırılır. Elektron lövhəli siniflərin, laboratoriyaların, fənn kabinələrinin, kitabxanaların yaradılacağı binada yenidənqurma işlərinin sürətlə aparılması onu deməyə əsas verir ki, bina qısa vaxtda müəllim və şagirdlərin istifadəsinə veriləcək.

İş icraçısı Umud İsayevin bildirdiyinə görə, yaxınlıqda inşa olunan yataqxana binasında da işlər sürətlə gedir. Binanın zirzəmi hissəsində və birinci mərtəbəsində divarların və arakəsmələrin hörgüsü yekunlaşmaq üzrədir. 240 şagird yerlik yataqxana binasında son mərtəbədə qəlib-beton işləri başa çatdırılıb, fasad divarlarının, arakəsmələrin hörgüsünə başlanılıb.

Məlumat üçün bildirək ki, Şərur şəhərində təhsil sahəsində aparılan quruculuq işləri bununla məhdudlaşmayıb. Belə ki, şəhər 2 nömrəli tam orta məktəbin əvvəlki ikimərtəbəli binası müasir tələblərə cavab vermədiyindən bu məktəb üçün yeni binanın inşasına başlanılıb. Bina zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarətdir. Hazırda son mərtəbədə hörgü işləri aparılır, binaya kommunikasiya xətləri çəkilir, kanalizasiya və su sistemləri quraşdırılır. Təhsil ocağında elektron lövhəli siniflər, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, kompüter, şahmat və müəllimlər otaqları, kitabxana, bufet və idman zalı yaradılacaq. Kitabxanada internet vasitəsilə digər elektron kitabxanalara da müraciət etmək mümkün olacaq. Kompüter otağında hər biri internetə qoşulmuş kompüter dəstləri quraşdırılacaq. Məktəbdə yaradılan fənn laboratoriyaları da müasir tədris-təcrübə avadanlıqları ilə təmin ediləcək.

## Payız mövsümündə muxtar respublikada 200 hektardan artıq ərazidə yaşıllaşdırma tədbirləri həyata keçiriləcək

***Naxçıvan Muxtar Respublikasında həyata keçirilən kompleks quruculuq tədbirlərinin əsas istiqamətlərindən biri də ətraf mühitin qorunması, ekoloji problemlərin həll edilməsi və əlverişli ekoloji mühitin yaradılmasından ibarətdir.***

Müxtəlif təbii amillər, həmçinin muxtar respublikada kənd təsərrüfatının, müxtəlif sənaye sahələrinin inkişafı yaşıllıqların əhəmiyyətini daha da artırır.

Ötən əsrin 90-cı illərindən əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş yaşıllaşdırma tədbirləri bu sahədə xeyli uğurlar qazanılmasını təmin etmiş, yaşıllıqların ərazisi 0,6 faizdən 12 faizədək artmışdır.

Bu sahədə görülən işlər 2015-ci ildə də uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyindən verilən məlumata görə, hazırda mövsümlə əlaqədar ağac əkini işlərinə hazırlıq görülür. Cari mövsümdə muxtar respublikamızda ilk dəfə olaraq xüsusi becərmə və qulluq tələb edən püstə bağlarının salınması nəzərdə tutulur. Bu məqsədlə Kəngərli rayonu ərazisində Naxçıvan Sement Zavoduna gedən yolun sol kənarında 50 hektar sahə seçilərək hamarlama aparılmış, əkin hazırlığı işlərinə başlanılmışdır. Qonşu ölkələrin bu sahədəki təcrübələri öyrənilmiş və dibçəkdə püstə fidanları alınaraq gətirilmişdir. Əkin aparıldıqdan sonra ərazidə damcılı suvarma sisteminin qurulması nəzərdə tutulmuşdur. Mütəxəssis rəyləri nəzərə alınaraq əkin işlərinə noyabr ayının əvvəlində başlanılacaq.

Qeyd edək ki, muxtar respublika ərazisində payız mövsümündə, ümumilikdə, 200 hektardan artıq ərazidə yaşıllaşdırma işlərinin aparılması nəzərdə tutulmuşdur. 100 hektar ərazidə yaşıllaşdırma işləri Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi və onun tabeli idarə və müəssisələri tərəfindən icra ediləcək.

**Xəbərlər şöbəsi**

## Qış mövsümündə Naxçıvan şəhəri istiliklə tam təmin olunacaq

Qış mövsümündə idarə, müəssisə və təşkilatların fasiləsiz fəaliyyət göstərməsini və əhalinin normal yaşayışını təmin edən əsas amillərdən biri də inzibati və ictimai yaşayış binalarının istiliklə təmin edilməsidir. Naxçıvan Şəhər İstilik Təsərrüfatı İdarəsindən aldığımız məlumata görə, bu məqsədlə şəhərdə ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilib. 2015-2016-cı ilin payız-qış mövsümünə hazırlıqla əlaqədar olaraq bütün qazanxanalara və istilik şəbəkəsi obyektlərinə baxış keçirilib, mərkəzləşdirilmiş qazanxanalarda cari təmir işləri aparılıb, buxar və istilik qazanları təmizlənib, sıradan çıxmış mühərriklər yenisi ilə əvəz edilib.

Xətt təsərrüfatında əsaslı və cari təmir işləri də diqqət mərkəzində saxlanılıb, qış mövsümündə Naxçıvan şəhərinin daha etibarlı istilik sistemi ilə təmin olunmasına möhkəm zəmin yaradılıb.

Əhalinin davamlı olaraq istiliklə təmin edilməsi üçün mərkəzləşdirilmiş qazanxanaların təbii qaz və mazutla, fərdi qazanxanaların isə təbii qaz və dizel yanacağı ilə işləməsi təmin edilib. Qaz təsərrüfatında hər hansı bir qəza baş verərsə, qazanxanalar mazut və dizel yanacağı ilə işləyəcək, istilik sistemində fasilələr yaranmayacaq. İstilik şəbəkələrinin, ictimai yaşayış binalarının aşağı paylama və daxili istilik sisteminin yenidən qurulması ilə əlaqədar kompleks tədbirlər həyata keçirilib. Qazanxanalarda və xətt təsərrüfatlarında baş verə biləcək hər hansı qəzanın vaxtında aradan qaldırılması üçün qəza briqadalarının 24 saat fəaliyyət göstərməsinə hərtərəfli şərait yaradılıb.

Onu da qeyd edək ki, son illər yeni inşa olunan binalarla yanaşı, mövcud inzibati və ictimai yaşayış binalarının istilik sisteminin yenidən qurulması ilə əlaqədar olaraq istilik şəbəkəsi ildən-ilə genişləndirilir, müasir texnoloji avadanlıqlar tətbiq olunmaqla fərdi qazanxanalar tikilib istifadəyə verilir. Fərdi qazanxanalardan inzibati və yaşayış binalarınadək olan məsafədə istilik xətləri tunellər vasitəsilə çəkilib ki, bu da həmin xətlərin korroziyaya uğramasının qarşısını alır, yaranmış nasazlıqların yerüstü kommunikasiya xətlərinin zədələnmədən aradan qaldırılmasına və müntəzəm nəzarət olunmasına əlverişli şərait yaradır.

2015-2016-cı ilin payız-qış mövsümündə 5 mərkəzləşdirilmiş və 38 fərdi qazanxana vasitəsilə 173 ictimai yaşayış binasının 7634 mənzili və 32 inzibati bina istiliklə təmin olunacaq. Hazırda tərtib olunmuş qrafikə uyğun olaraq ayrı-ayrı ünvanlarda inzibati və ictimai yaşayış binalarının istilik xətlərinə müəyyən olunmuş təzyiqlə su vurularaq sınaq-yoxlamalar aparılır. Həmçinin istilik xətlərinə kənar müdaxilələrin qarşısının alınması məqsədilə İstilik Təsərrüfatı İdarəsi və mənzil-istismar sahələrinin əməkdaşları tərəfindən vaxtaşırı olaraq reydlər keçirilir, əhali arasında maarifləndirici söhbətlər aparılır.

**Kərəm HƏSƏNOV**

***Seçkilər hər bir ölkənin siyasi həyatında mühüm hadisə hesab olunur. Seçkilərin demokratik, azad və ədalətli keçirilməsi hakimiyyətin seçkili orqanlarının xalq tərəfindən formalaşdırılmasının əyani ifadəsidir. Ölkəmiz mühüm siyasi kampaniya olan parlament seçkiləri ərəfəsindədir. Noyabrın 1-də seçicilər seçki məntəqələrinə gedib istədikləri namizədlərə səs verəcəklər. Seçki kampaniyası kifayət qədər demokratikliyi, seçkilərin keçirilməsi üçün lazımi şəraitin yaradılması ilə səciyyələnir. Qeyd olunmalıdır ki, seçkilərin yüksək səviyyədə təşkili üçün muxtar respublikamızda artıq zəngin təcrübə qazanılmışdır. Son illərdə keçirilən prezident, parlament və bələdiyyə seçkiləri də bir daha göstərib ki, ölkəmizdə, onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda vətəndaşların öz seçki hüquqlarından istifadəsi diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikasında parlament seçkilərinə ciddi hazırlıq işləri görülmüşdür. İndiyədək qanunvericiliyə uyğun olaraq, seçki prosesinin hər bir mərhələsi uğurla başa çatdırılmışdır. Azərbaycan Respublikasının Milli Məclisinə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə noyabr ayının 1-də keçiriləcək seçkilərə hazırlıqla bağlı son vəziyyəti öyrənmək üçün Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məhərrəm Qasımova müraciət etdik:***

# Naxçıvan Muxtar Respublikası parlament seçkilərinə tam hazırdır



***– Məhərrəm müəllim, artıq seçkilərə çox az bir müddət qalıb. Seçki komissiyalarının seçki gününə hazırlığı hansı səviyyədədir?***

– Bildiyimiz kimi, bu il noyabr ayının 1-də həm Azərbaycan Respublikası Milli Məclisinə, həm də Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər keçiriləcək. Buna görə də hər iki seçkiyə hazırlıq paralel şəkildə aparılır. Seçki komissiyaları seçkilərin hazırlanması prosesinə seçkilərin elan olunmasından çox əvvəl başlamışlar. Belə ki, ilk işimiz seçici siyahılarının dəqiq tərtib edilməsidir. Bu proses yanvar ayından etibarən başlayır və seçicilərin daimi siyahısı hər bir məntəqə seçki komissiyası tərəfindən Mərkəzi Seçki Komissiyasının müəyyənləşdirdiyi formada mayın 30-dək təsdiq edilir və səsvermə gününə azı 25 gün qalmışadək dəqiqləşdirilir. Artıq seçici siyahıları Mərkəzi Seçki Komissiyasında çap olunaraq muxtar respublikaya gətirilmiş və məntəqə seçki komissiyalarının qarşısında yerləşdirilmişdir. Seçkilərdən əvvəl hər kəs yaşadığı ərazidə fəaliyyət göstərən məntəqə seçki komissiyasına yaxınlaşaraq öz adının müvafiq seçici siyahısında olub-olmadığını müəyyənləşdirə bilər. Əgər seçici öz adının müvafiq seçki məntəqəsi üzrə tərtib edilmiş seçici siyahısında olmadığını aşkar edərsə, şəxsiyyət vəsiqəsini müvafiq seçki komissiyasına təqdim etməklə adını seçici siyahısına əlavə edə bilər. Muxtar respublika üzrə seçicilərin sayı 268 min 463 nəfərdir. Bunlardan 137 min 454 nəfəri qadın, 131 min 9 nəfəri isə kişidir. 4799 nəfəri ilk dəfə səs verən seçicilərdir. 2014-cü ildə keçirilmiş bələdiyyə seçkiləri ilə müqayisədə seçicilərin sayı 2033 nəfər artmışdır.

Dairə və məntəqə seçki komissiyalarının seçkilərə tam hazır olması üçün tələb olunan bütün işlər həyata keçirilmişdir. Belə ki, hər bir seçki komissiyasında mövcud olan inventar və avadanlıqlar tək-tək araşdırılmış, seçki komissiyaları seçki günü üçün tələb olunan bütün əşyalarla təmin olunaraq tam hazır vəziyyətə gətirilmişdir. Milli Məclisə seçkilər ilə əlaqədar olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının hazırladığı təlimatlar, izah və qaydalar, Seçki Məcəlləsi, nümunə protokollar və digər seçki sənədləri Bakıdan gətirilərək müvafiq seçki komissiyalarına paylanılmışdır. Əhalinin maarifləndirilməsi üçün plakatlar şəhər, qəsəbə və kəndlərdə mərkəzi yerlərdə yerləşdirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərlə əlaqədar Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının hazırladığı təlimatlar, izah və qaydalar, "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanunu, nümunə protokollar və digər tələb olunan seçki sənədləri nəşr olunaraq müvafiq seçki komissiyalarına verilmişdir.

***– Səsvermə prosesi muxtar respublikada neçə seçki dairəsini və məntəqəsini əhatə edəcək və neçə deputat seçiləcəkdir?***

– Muxtar respublikada Azərbaycan Respublikasının Milli Məclisinə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər üzrə 292 açıq və 24 qapalı (seçki gününə 5 gün qalmış yaradılan) seçki məntəqəsi yaradılmışdır. Onu da qeyd edim ki, Azərbaycan Respublikasının Milli Məclisinə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilərdə fəaliyyət göstərəcək məntəqə seçki komissiyaları eyni binalarda yerləşirlər. Seçki məntəqələri yeni binalarda yerləşdirilmişdir. Bəhs etdiyim 24 qapalı seçki məntəqəsi muxtar respublikada xidmət keçən hərbi qulluqçuların və cəzaçəkmə müəssisəsində cəza çəkən məhkumların aktiv seçki hüquqlarının təmin olunması üçün seçkilərə 5 gün qalmış yaradılmışdır. Azərbaycan Respublikasının Milli Məclisinə 7 seçki dairəsi üzrə 29 nəfərin namizədliyi qeydə alınmışdır ki, onlardan 7-si deputat seçiləcəkdir. Namizədlərin partiya mənsubiyyətinə görə 5 nəfəri Yeni Azərbaycan Partiyasının, 16 nəfəri müxalifət partiyalarının nümayəndələri, 8 nəfəri isə bitərəflərdir. Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə isə 45 seçki dairəsi üzrə 135 namizəd qeydə alınmışdır ki, onlardan 45-i deputat seçiləcəkdir. Bu namizədlərin 44 nəfəri Yeni Azərbaycan Partiyasının, 46 nəfəri müxalifət partiyalarının nümayəndələri, 45 nəfəri isə bitərəflərdir.

***– Seçki kampaniyalarının əsas komponentlərindən biri də təşviqat mərhələsidir. Qeydə alınmış namizədlərin seçkiqabağı təşviqatı necə təşkil olunmuşdur?***

– Hər bir namizəd özünün seçkiqabağı təşviqatını sərbəst apara bilər. Bunun üçün qanunla müəyyən olunmuş üsullardan istifadə edilməlidir. Yəni kütləvi informasiya vasitələri ilə, kütləvi tədbirlər – yığıncaqlar və vətəndaşlarla görüşlər, kütləvi müzakirələr, söhbətlər və sair keçirilməsi, çap olunmuş, audiovizual və digər təşviqat materiallarının buraxılması və yayılması yolu ilə, yaxud qanunla qadağan edilməyən digər üsullarla hər bir namizəd özünün seçkiqabağı təbliğatını təşkil edə bilər. Muxtar respublikanın şəhər və rayonlarında hər kəsin görə biləcəyi mərkəzi yerlərdə xüsusi lövhələr yerləşdirilmişdir. Eyni zamanda şəhər və rayon mərkəzlərində namizədlərin öz seçiciləri ilə görüşlər keçirə bilməsi üçün qapalı və açıq məkanlar müəyyənləşdirilmiş və yerli mətbuat orqanlarında bu yerlər haqqında məlumat dərc olunmuşdur. Seçkilərə 24 saat qalmış, yəni oktyabrın 31-i saat $8^{00}$-də seçkiqabağı təşviqatın müddəti bitir. Qeyd etdiyim tarixdən sonra Seçki Məcəlləsinə əsasən, qeydə alınmış namizədlərin və yaxud onların səlahiyyətli nümayəndələrinin, vəkillərinin təşviqat xarakterli çıxışları, təşviqat materiallarını yaymaları qadağandır.

***– Gözəgörünməyən mürəkkəblərdən builki seçkilərdə də istifadə olunacaqmı?***

– Bəli, məntəqə seçki komissiyasının üzvlərindən biri səsvermə otağının girişində seçki məntəqəsinə gələn hər bir seçicinin şəxsiyyətini təsdiq edən müvafiq sənədi yoxladıqdan sonra ultrabənövşəyi lampa ilə seçicinin sol əlinin baş barmağının dırnaq və dərisinin bir hissəsinin gözəgörünməyən mürəkkəblə işarələnib-işarələnmədiyini yoxlayacaq. Bununla seçicinin əvvəl səs verib-vermədiyi yəqinləşəcək. Həmçinin seçiciyə seçki bülleteni verilərkən onun sol əlinin baş barmağının gözəgörünməyən mürəkkəblə işarələnməsi təklif olunacaq və izah ediləcək ki, əgər bu cür işarələnmədən imtina edərsə, ona seçki bülleteni verilməyəcəkdir.

***– Seçici səs vermək üçün hansı sənədləri təqdim etməlidir?***

– Azərbaycan Respublikasının vətəndaşları şəxsiyyət vəsiqəsini və ya müvəqqəti şəxsiyyət vəsiqəsini, qaçqın və məcburi köçkün vətəndaşlar, əgər şəxsiyyət vəsiqəsi yoxdursa, Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən verilmiş müvafiq vəsiqəni, hərbi qulluqçular zabitin şəxsi vəsiqəsini və ya hərbi bileti, istintaq təcridxanalarında saxlanılan təqsirləndirilən şəxslər və cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumlar Ədliyyə Nazirliyinin Penitensiar Xidməti tərəfindən verilmiş təqsirləndirilən şəxsin və ya məhkumun şəxsiyyətini təsdiq edən müvafiq sənədi təqdim etməlidirlər.

Seçicilər səsverməyə gələrkən şəxsiyyəti təsdiq edən müvafiq sənədi özləri ilə mütləq gətirməlidirlər. Əks halda, səsvermədə iştirak edə bilməyəcəklər.

***– Əgər seçici öz adını seçicilər siyahısında tapmasa, nə etməlidir?***

– Bu zaman seçicinin səsvermə hüququnu yoxlayan məntəqə seçki komissiyasının üzvü həmin seçiciyə izah edəcək ki, adının siyahıya salınması üçün məntəqə seçki komissiyasının sədrinə müraciət etsin. Seçicinin adının əlavə seçici siyahısına salınıb-salınmaması məsələsi yalnız məntəqə seçki komissiyasının qərarı əsasında həyata keçirilir. Seçicinin adının əlavə seçici siyahısına salınması üçün seçki məntəqəsinin ərazisində müvafiq polis orqanları tərəfindən verilmiş daimi və ya müvəqqəti qeydiyyatda olmasını təsdiqləyən sənəd olmalıdır.

***– Seçici səsvermə bülletenini korlayarsa, ona yeni bülleten veriləbilərmi?***

– Seçici seçki bülletenini korlayarsa, ona yeni seçki bülleteni verilə bilər. Bunun üçün o, korlanmış seçki bülletenini bülleten verən məntəqə seçki komissiyasının üzvünə qaytarmalıdır. Məntəqə seçki komissiyasının üzvü korlanmış seçki bülletenini alaraq onu yarı kəsməklə ləğv edir və korlanmış seçki bülletenləri üçün nəzərdə tutulan ayrıca zərfə qoyur. Daha sonra seçiciyə yeni seçki bülleteni verərək onun seçki bülletenini korlaması və yenisinin verilməsi barədə seçicilər siyahısında seçicinin soyadından sağda bu barədə müvafiq qeyd edir. Hər bir korlanmış seçki bülleteni barədə ayrıca akt tərtib olunur.

***– Seçici səsvermə bülletenini doldurmaqda çətinlik çəkərsə, ona kimlər kömək edə bilər?***

– Seçki bülletenini almaq və doldurmaq üçün köməyə ehtiyacı olan seçici məntəqə seçki komissiyasının üzvləri və müşahidəçilər istisna olmaqla, aktiv seçki hüququ olan başqa şəxsə müraciət edə bilər. Seçiciyə seçki bülleteni almaqda və ya doldurmaqda köməklik edən şəxs öz soyadını, adını və atasının adını göstərməklə seçici siyahısının "seçicinin seçki bülletenini alması haqqında imza" qrafasında imza etməlidir. Bülleteni doldurmaq üçün seçici dərhal boş səsvermə kabinəsinə daxil olur. Ehtiyac olarsa, kömək göstərən şəxs seçici ilə birlikdə səsvermə kabinəsinə daxil ola bilər.

***– Səsvermə günü müxtəlif səbəblərdən muxtar respublika ərazisində olmayan seçicilər necə səs verəcəklər?***

– Parlament seçkiləri digər seçkilərdən fərqlənir. Belə ki, hər bir seçici yalnız yaşadığı ərazidəki seçki dairəsi üzrə namizədliyi qeydə alınmış şəxslərə səs verə bilər. Bu baxımdan səsvermə günü başqa yerdə olan seçicinin səsvermədə iştirakı mümkün deyil.

***– Seçki günü səhhətinə görə və ya digər üzrlü səbəblərdən seçki məntəqəsinə gələ bilməyən seçicilər necə səs verəcək?***

– Bu kimi səbəblərə görə səsvermə günü seçki məntəqəsinə gələ bilməyən seçicilər daşınan seçki qutusu ilə səs verə biləcəklər. Həmin şəxslər səsvermə gününə azı 24 saat qalmış məntəqə seçki komissiyasına yazılı və ya şifahi formada müraciət etməlidirlər. Məntəqə seçki komissiyasının sədri bu müraciətlər əsasında siyahı hazırlayır və səsvermə günü məntəqə seçki komissiyasının iki üzvü səsvermə otağından kənarda bu şəxslərin səsverməsini təmin edir.

***– Ötən seçkilərdə bir neçə seçki məntəqəsində veb-kameralar quraşdırılmışdı. Bu seçkilərdə də veb-kameralardan istifadə olunacaqmı?***

– Bəli, seçki məntəqələrində veb-kameraların quraşdırılması seçkilərdə şəffaflığın təmin olunmasının mühüm vasitəsidir. Muxtar respublikada fəaliyyət göstərən hər bir seçki dairəsinin beş seçki məntəqəsində olmaqla, ümumilikdə, muxtar respublikada 35 seçki məntəqəsində veb-kameralar quraşdırılmışdır və seçki günü səsvermə və səslərin hesablanması müddətində aktiv olacaqdır. İstəyən hər kəs internet vasitəsilə həmin seçki məntəqələrində səsverməni və səslərin hesablanmasını izləyə bilər.

***– Məhərrəm müəllim, xahiş edirik seçki bülleteninin doldurulma qaydasını izah edəsiniz.***

– Seçki bülletenini almış seçici səsvermə kabinəsinə daxil olur və bülletendə qeyd olunan namizədlər sırasından yalnız 1 namizədin adının sağ tərəfində olan boş kvadratın içərisinə işarə qoyur. Məsələn, bülletendə 3 nəfər namizədin adı qeyd olunubdursa, o zaman seçici həmin 3 nəfərdən yalnız 1 nəfərin adından sağda olan boş kvadratın içində hər hansı bir işarə qoyur. Əgər seçici heç bir işarə qoymazsa və ya 1-dən artıq namizədi işarə edərsə, o zaman onun verdiyi səs etibarsız hesab olunacaqdır.

***– Sonda seçicilərə nə deyə bilərsiniz?***

– Əziz seçicilər! Ötən müddət ərzində seçki məntəqələri səsvermənin keçirilməsi üçün tam hazır vəziyyətə gətirilmişdir. Həm seçki məntəqələrinin maddi-texniki bazası, həm də komissiya üzvlərinin peşəkarlığı imkan verir ki, seçkilər azad və demokratik şəraitdə keçirilsin. Builki parlament seçkiləri də tam demokratik və şəffaf şəraitdə keçiriləcəkdir.

**Müsahibəni apardı:**
**Muxtar MƏMMƏDOV**

# Seçkilərin demokratik şəkildə keçirilməsi üçün hərtərəfli şərait yaradılıb

***Noyabrın 1-də keçiriləcək seçkilərə hazırlığın vəziyyəti ilə bağlı tanışlıq zamanı şahbuzluların da bu prosesə yüksək ovqatla qatılacaqlarına əmin olduq.***

5 saylı Şahbuz-Babək Dairə Seçki Komissiyasının sədri Taməddin Hüseynovla söhbətimizdə öyrəndik ki, bu dairə üzrə 46 məntəqə fəaliyyət göstərir. Həmin məntəqələrin hamısı seçkiyə tam hazırdır. Ümumilikdə, bu məntəqələrdə 30 min 46 seçici səs verəcək. İlk dəfə səs verəcək seçicilər 541 nəfərdir. Komissiya sədrinin sözlərinə görə, seçki məntəqələrinin 25-i Şahbuz, 12-si Babək rayonunda yerləşir. Şahbuz rayonundan 14 min 938, Babək rayonundan 12 min 70 seçici seçkiyə qatılacaq. Bütün seçki məntəqələri lazımi avadanlıqlarla təmin edilib, seçki sənədlərinin mühafizəsi üçün tədbirlər görülüb. Məntəqələr seçkilərə aid sənədlərlə təmin olunub. Dairənin 5-1, 5-2, 5-26, 5-31, 5-34 saylı seçki məntəqələrində veb-kameralar quraşdırılıb.



Şahbuz rayonunda yerləşən seçki məntəqələrindən bir neçəsində olduq. 5-6 saylı seçki məntəqəsi Şahbuz şəhər 2 nömrəli tam orta məktəbin binasında yerləşir. Seçki məntəqəsinin sədri Əvəz Həsənov bildirdi ki, bu məntəqədə səs verəcək seçicilərin sayı 803 nəfərdir. Onlardan 18 nəfəri ilk dəfə səs verəcəkdir. Müsahibimiz onu da diqqətə çatdırdı ki, burada hərtərəfli şərait yaradılıb. Katib və üzvlər, həmçinin seçkini izləyəcək müşahidəçilər üçün yerlər müəyyən edilib. Seçicilərin aktivliyi də hiss olunur. Onlar öz adlarının seçici siyahısında olub-olmadığını dəqiqləşdirmək üçün bura gəlirlər.

5-2 saylı seçki məntəqəsi isə Şahbuzkənd tam orta məktəbinin binasında yerləşir. Burada da hazırlıq işləri yüksək səviyyədə həyata keçirilib. Məntəqə seçki komissiyasının sədri Xəqani Həzrətquliyev dedi ki, məntəqə üzrə 787 nəfər səs verəcək. Onlardan 11 nəfəri ilk dəfə seçkidə iştirak edəcək.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinə 34-7 saylı Şada seçki məntəqəsində 131 seçici səs verəcək. Bu məntəqədə də hazırlıq işləri tamamilə başa çatdırılıb. Hazırlıq işləri "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununa əsasən həyata keçirilib. Məntəqə lazım olan bütün avadanlıqlarla təmin edilib. Seçici siyahıları dəqiqləşdirilib, komissiya üzvlərinin təlimatlandırılması məqsədilə onlar seminar-müşavirələrə cəlb olunublar. İlk dəfə səs verənlərlə söhbətlər aparılıb. Bu tədbirlər 35-9 saylı Qızıl Qışlaq, 36-9 saylı Kiçikoba seçki məntəqələrində də həyata keçirilib.

**Səbuhi HƏSƏNOV**

***Ümummilli liderimiz Heydər Əliyevin şəxsi təşəbbüsü və qayğısı ilə yaradılan Naxçıvan Musiqi Kollecinin muxtar respublikamızda ixtisaslı musiqiçi kadrların hazırlanmasında özünəməxsus rolu və böyük xidmətləri vardır. İstedadlı gənclərə musiqi təhsilinin verilməsində, xalqımıza məxsus musiqi alətlərinin yaşadılmasında, mahnılarımızın, eləcə də klassik musiqinin təbliği və öyrənilməsi sahəsində bu mədəniyyət və təhsil müəssisəsinin fəaliyyəti təqdirəlayiqdir. Odur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 29 mart 2015-ci il tarixdə "Naxçıvan Musiqi Kollecinin 40 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalayıb. Həmin sərəncam Naxçıvan musiqiçilərinin sevincinə səbəb olmaqla, onların gələcək fəaliyyətinə böyük qayğının ifadəsi kimi dəyərləndirilib.***



# Musiqi kollektivlərində peşəkar musiqiçilər yetişir



40 il, əslində, təhsil ocağı üçün az müddət deyil, bir qərinədən artıq zaman kəsiyidir. Və düz 40 ildir ki, burada gənc nəslə musiqi elmi, ifaçılıq sənəti öyrədilir. Qeyd etmək lazımdır ki, bu illər ərzində kollecin musiqi kollektivlərinin muxtar respublikada mədəniyyətin inkişafındakı xidmətləri az olmayıb. O kollektivlər ki, gənclərin peşəkar musiqiçi kimi yetişməsində böyük rol oynayır. Hazırda kollektivlər muxtar respublikanın mədəni həyatında fəal iştirak edir, konsert və bayram tədbirlərində rəngarəng repertuarlarla tədbir iştirakçılarında xoş ovqat yaradırlar. Kollecdə xalq çalğı alətləri, simfonik, nəfəs alətləri, estrada orkestrləri, qədim alətlər, "Dilrüba" muğam, "Gənclik" instrumental, sazçalanlar ansamblları, xor kollektivi, "Naxçıvanqala" ritm qrupu və yallı qrupu fəaliyyət göstərir. Ali Məclis Sədrinin qayğısı ilə yaradılan həmin kollektivlər zəruri musiqi alətləri və avadanlıqlarla təmin olunublar.

Kollecdə yaradılan ilk kollektivlərdən biri xalq çalğı alətləri orkestridir. 1977-ci ildən fəaliyyətə başlayan orkestrin bədii rəhbəri və dirijoru Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Təranə Qurbanovadır. Kollektivin ilk dirijoru Arif Məhərrəmov olub. Sonralar Rəşid Məmmədov, Əkrəm Məmmədov, Nazim Quliyev, Həsənağa Qurbanov, Qorxmaz Axundov, Adıgözəl Rzayev, İmamqulu Əhmədov, Elman Əliyev orkestrə dirijorluq ediblər. Orkestrin repertuarına Azərbaycan bəstəkarlarının əsərləri və xalq mahnıları daxildir. Orkestrin tərkibi 52 tələbədən ibarətdir.

İki il sonra kollecdə nəfəs alətləri orkestri yaradılıb. Amma daha sonra tələbə qəbulu aparılmadığı üçün fəaliyyəti dayandırılıb. 2006-cı ildə orkestrin fəaliyyəti bərpa olunub. 2007-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə orkestr üçün yeni nəfəs və zərb alətləri alınıb. Bu musiqi alətlərinin təqdimat mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri deyib: ***"Gənclərimiz milli musiqi alətlərimizlə yanaşı, dünya səviyyəli musiqi alətlərində də ifa etməyi bacarmalıdırlar. Biz öz milli musiqimizi öyrənib təbliğ etməklə yanaşı, dünya musiqisini də mənimsəməliyik".***

Hazırda orkestrin tərkibində 19 tələbə var. Bədii rəhbər və dirijor Vaqif Əsədovdur. Nəfəs alətləri orkestrinin repertuarına Azərbaycan, xarici ölkə bəstəkarlarının əsərləri daxildir.

1982-ci ildən fəaliyyət göstərən xor kollektivi 40 nəfərdən ibarətdir. Xormeysterlər kollecin müəllimləri Nüşabə Əfəndiyeva və Aytəkin Mustafayevadır. Bundan başqa, son illərdə kollecdə bir sıra kollektivlər də yaradılıb. Sazçalanlar ansamblı (2003-cü il), "Naxçıvanqala" ritm qrupu (2005-ci il), "Gənclik" instrumental ansamblı (2007-ci il), yallı qrupu (2010-cu il), "Dilrüba" muğam ansamblı (2012-ci il) kollecdə təhsil alan istedadlı tələbə musiqiçiləri öz ətrafına toplayıb.

2007-ci ildən fəaliyyətə başlayan simfonik orkestr peşəkar kollektiv kimi uğurlarını getdikcə artırır. Orkestrin repertuarına Azərbaycan bəstəkarlarının və dünya klassiklərinin əsərləri daxildir. Kollektivin tərkibində 40 nəfərdən ibarət müəllim, konsertmeyster və tələbə fəaliyyət göstərir. Orkestrin bədii rəhbəri Fətəli Axundzadə, dirijoru Səməd Əsgərov, konsertmeysteri Cahangir Qurbanovdur. Orkestr öz çıxışları ilə kollecin tərcümeyi-halına bir çox uğurlar yazır. 2010-cu il mayın 27-də Heydər Əliyev Sarayında 28 May – Respublika Günü münasibətilə Naxçıvan Musiqi Kolleci simfonik orkestrinin konserti yaddaşlardan silinməyib. Həmin konsertdə orkestr Azərbaycan bəstəkarlarından Üzeyir Hacıbəyovun, Qara Qarayevin, Fikrət Əmirovun, Ərtoğrol Cavidin, Yaşar Xəlilovun, dünya bəstəkarlarından Frederik Şopenin, Edvard Qriqin, Astor Pizollanın əsərlərini ifa edib. Konsertdən sonra səhnə arxasına keçən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov musiqi kollektivini uğurlu konsert proqramı münasibətilə təbrik edərək deyib: ***"Sizin çıxışınız bir daha təsdiqlədi ki, Azərbaycan xalqı istedadlı xalqdır, şərait yaradılanda o, istedadını göstərə bilir. Ümummilli liderimiz hələ ötən əsrin 70-ci illərində Azərbaycanda hakimiyyətdə olduğu dövrdə Azərbaycanın iqtisadi imkanları onun vətəndaşlarının inkişafına, Azərbaycan dövlətinin möhkəmləndirilməsinə yönəldilmişdir. Bu gün də belədir. Azərbaycan dövlətinin imkanları onun gəncliyinə, inkişafına sərf olunur. Sizin çıxışınız Azərbaycanda gedən inkişafın bariz nümunəsidir".***

Qədim musiqi alətlərinin bərpası və qorunub saxlanılması məqsədilə 2005-ci ildə kollecdə qədim alətlər ansamblı yaradılıb. Tərkibində 17 tələbə olan ansambla rəhbərliyi kollecin müəllimləri İxtiyar Seyidov və Cəlil İsmayılov edir. Kollektivin repertuarına Azərbaycan xalq mahnıları, təsniflər, rənglər və aşıq musiqiləri daxildir.

Ötən il isə kollecdə estrada orkestri yaradılıb. Orkestrin bədii rəhbəri və dirijoru Səməd Əsgərovdur.

*Yuxarıda adıçəkilən sərəncama əsasən kollecin yubileyinin geniş şəkildə qeyd olunması üçün tədbirlər planı təsdiq edilib. Tədbirlər planına uyğun olaraq, kollecin musiqi kollektivlərinin konsertləri təşkil olunub. Simfonik orkestr, estrada orkestri, qədim alətlər ansamblı, "Dilrüba" muğam ansamblı və "Naxçıvanqala" ritm qrupu muxtar respublikanın rayon mədəniyyət evlərində maraqlı konsert proqramları ilə çıxış edirlər. Göstərilən diqqət və qayğıdan bəhrələnən bu musiqi kollektivləri, heç şübhə yoxdur ki, bundan sonra da peşəkar musiqiçilərin yetişməsinə öz töhfələrini verəcək, muxtar respublikanın mədəni həyatında fəal iştirak edəcəklər.*

# Naxçıvan Musiqi Kolleci öz yetirmələri ilə tanınır

*Naxçıvan Musiqi Kolleci öz tarixinin ən gözəl günlərini yaşayır. Onun keçdiyi bu şərəfli illərə nəzər salarkən belə qənaətə gəlmək olar ki, Naxçıvan musiqi mədəniyyətini bu təhsil ocağından ayrı təsəvvür etmək qeyri-mümkündür. Məhz bu təhsil ocağının hesabına muxtar respublikada onlarla uşaq musiqi məktəbinin açılması reallaşıb. Kollec olmasaydı, Naxçıvan Dövlət Universitetinin Konservatoriyasını yaratmaq da çətin olardı. Xüsusi vurğulanmalıdır ki, kollec muxtar respublikada musiqiçi kadrlar yetişdirməklə kifayətlənmir, eyni zamanda onlara müstəqil düşüncə tərzi, həyat hadisələrinə zamanın fövqündən baxmaq bacarığı da aşılayır.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Musiqi Kollecinin 40 illik yubileyinin keçirilməsi haqqında" imzaladığı Sərəncamda qeyd olunduğu kimi: ***"Ali musiqi məktəbləri üçün fundamental baza rolunu oynayan Naxçıvan Musiqi Kollecinin muxtar respublikada mədəniyyətin inkişafında və orta ixtisaslı musiqiçi kadrların hazırlanmasında rolu böyükdür. Bu təhsil ocağının yalnız musiqiçi kadrlar deyil, həm də hərtərəfli inkişaf etmiş gənc nəslin yetişdirilməsində də xidmətləri vardır".***

Bəli, bu gün, demək olar ki, musiqi məktəblərinin pedaqoji kadrlara olan tələbatı Naxçıvan Musiqi Kollecinin istedadlı musiqiçi kadrları hesabına təmin olunub. Yubiley ərəfəsində kollecin məzunları ilə həmsöhbət olduq, təəssüratlarını bölüşdük.

İlk həmsöhbətim Məmməd Baxşılıdır. O, 1992-ci ildə Ordubad şəhərində anadan olub. Orta təhsilini Ordubad şəhər 1 nömrəli tam orta məktəbdə alıb. Məmmədin uşaqlıqdan musiqi duyumu güclü olub. Musiqi alətləri içərisində tarın ecazkar





səsi həmişə balaca Məmmədin diqqətini çəkib. Buna görə də Ordubad Şəhər Uşaq Musiqi Məktəbində Tar ixtisası üzrə təhsil alıb. Rayonda xüsusi istedada malik gənclərin ortaya çıxarılması istiqamətində görülən işlər bu gəncimizin də uğurlar qazanmasına şərait yaradıb. O, müxtəlif tədbirlərdə iştirak edərək diplomlara layiq görülüb. Məmməd deyir:

– Ən böyük arzularımdan biri Naxçıvan Musiqi Kollecində təhsil almaq idi. İmtahan verərək 2007-ci ildə Naxçıvan Musiqi Kollecinə qəbul oldum. Orada peşəkar musiqiçi kimi yetişmək üçün hər cür şərait var. Kollec müxtəlif musiqi alətləri ilə təmin olunub. Biz tələbələr kollecdə fəaliyyət göstərən musiqi kollektivlərinin tərkibində müxtəlif bayram tədbirlərində böyük tamaşaçı kütləsi qarşısında çıxış edirdik. Bütün bunlar bizim peşəkar musiqiçi kimi yetişməyimizə stimul olurdu. Ümumiyyətlə, 4 il müddətində şahidi oldum ki, kollecin maddi-texniki bazası daim möhkəmləndirilir. Təhsil ocağında müasir kompüter dəstləri və elektron lövhələr var. Biz tələbələr yeni texnologiyalardan istifadə etməklə bilik və bacarığımızı artırırdıq.

2013-cü ildən Ordubad Şəhər Uşaq Musiqi Məktəbində Tar ixtisası üzrə müəllim kimi fəaliyyət göstərən Məmməd Baxşılı Musiqi Kollecinin məzunu olmaqdan qürurla söhbət açır.

Digər həmsöhbətim Günel Məmmədovadır. O, 1992-ci ildə Kəngərli rayonunun Çalxanqala kəndində anadan olub. 2007-2011-ci illərdə Naxçıvan Musiqi Kollecinin Kamança ixtisasını bitirib. Günel Məmmədovanın dediklərindən:



– Musiqiçi ailəsində dünyaya göz açmışam. Atam Bəhman Məmmədov 20 ildən çoxdur ki, Çalxanqala Kənd Uşaq Musiqi Məktəbində işləyir. Mən də bu məktəbdə müəllim kimi fəaliyyətə başlamışam. 2012-ci ildən məktəbimiz yeni binada fəaliyyət göstərir. Musiqi məktəbində yaradılan şərait kəndimizdə şagirdlərin musiqi həvəsini daha da artırdı. Şagirdlərimin ikisi Musiqi Kollecində oxuyur. Bu mənim üçün böyük qürurdur.

Günel kollecin 40 illik yubileyinin keçirilməsinin bu təhsil ocağının məzunlarını da ürəkdən sevindirdiyini bildirdi:

– 40 ildir ki, Musiqi Kollecində gənc nəslə musiqi elmi, ifaçılıq sənəti öyrədilir. Naxçıvan Musiqi Kolleci ulu öndərin muxtar respublika sakinlərinə bəxş etdiyi hədiyyələrdən və onun yadigarlarından biridir. Ümummilli liderimiz Heydər Əliyevin bilavasitə təşəbbüsü, tapşırığı ilə həyata vəsiqə alan bir təhsil ocağının məzunu olmaq böyük şərəfdir. Bu sənət ocağının ixtisaslı musiqiçi kadrların hazırlanmasında, xalqımıza məxsus musiqi ənənələrinin yaşadılmasında, mahnılarımızın, eləcə də dünya klassik musiqisinin təbliği və öyrənilməsi sahəsində fəaliyyəti təqdirəlayiqdir. Həmçinin onun fəaliyyəti ilə muxtar respublikamızın uşaq musiqi məktəblərinin ixtisaslı müəllimlərlə təmin olunması problemləri də aradan qalxmağa başlayıb. Qeyd etməliyəm ki, biz ailədə üç bacıyıq. Bacılarımdan biri kolleci bitirib, digər bacım da IV kursda oxuyur. Buna görə də Musiqi Kolleci bizim ailə üçün doğma bir təhsil ocağıdır. Kollecin yubileyinin qeyd olunması bizim ailəyə bayram əhval-ruhiyyəsi gətirib. Mən də fürsətdən istifadə edib ailəm adından bu sənət ocağının 40 illik yubileyi münasibətilə bütün sənətsevərləri təbrik edir, müəllim və tələbələrə uğurlar arzulayıram.

Qeyd edək ki, Musiqi Kollecində Kitabxana-informasiya təminatı ixtisası da var. Bu ixtisası bitirən gənclər də az deyil. Hazırda onlar müxtəlif təşkilatlarda kitabxana işi üzrə fəaliyyət göstərirlər. Onlardan biri də Gövhər Məmmədovadır. İlk təhsilini Şərur şəhər 2 nömrəli tam orta məktəbdə alan Gövhər 2010-cu ildə kollecin Kitabxana-informasiya təminatı ixtisasını bitirib. Təhsil aldığı illərdə bir sıra tədbirlərdə, kitabxana günlərində, təcrübələrdə iştirak edib. İlk fəaliyyətinə Şərur Rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemində başlayıb. O, 2012-ci ildən Şərur rayon Axura kənd tam orta məktəbində kitabxanaçı işləyir.

Gövhərlə söhbətimiz maraqlı oldu:

– Naxçıvan Musiqi Kollecində Kitabxana-informasiya təminatı ixtisası muxtar respublikada orta ixtisaslı kitabxanaçı kadrlara olan tələbat nəzərə alınaraq 2007-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə açılıb. Mən Naxçıvan Musiqi Kollecinin bu ixtisasının ilk məzunlarındanam. Kollecdə təcrübəli müəllimlərdən aldığım təhsil bu gün səmərəli əmək fəaliyyətimə təsir edir. Məktəbdə şagirdlərə kitabların insan həyatında mühüm yer tutduğunu, bilik və bacarıqlarını artırmaq, dünyagörüşünün formalaşmasına birbaşa təsir etdiyini aşılamaq müəllimlərlə yanaşı, kitabxanaçıların da vəzifə borcudur. Bu məqsədlə hər ay məktəbdə kitabxana günləri, kitab müzakirələri, şair və yazıçıların yubileylərini keçiririk.

Məzun olduğum kollecin yubileyinin geniş şəkildə qeyd olunması kollecin müəllim və tələbə kollektivinin, musiqi ictimaiyyətinin və biz məzunların sevincinə səbəb olub. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə təhsilə göstərdiyi yüksək diqqət və qayğıya görə təhsil işçiləri adından dərin minnətdarlığımızı bildirir, əmin edirik ki, istedadlı gənc nəslin yetişdirilməsi sahəsində əzmlə çalışacaq, göstərilən etimadı doğruldacağıq.

***Bəli, "Naxçıvan Musiqi Kollecini bitirmişəm" cümləsini kollecin məzunları neçə illər keçsə də, böyük qürur hissilə deyir və deyəcəklər. Kollecin kollektivi musiqi sahəsindəki çoxillik təcrübəni doğma sənət ocağının bundan sonrakı fəaliyyətinin əsas istiqaməti kimi davam etdirməyi başlıca vəzifələrindən biri sayır. Biz də yüksək səviyyəli musiqiçi kadrların hazırlanması kimi əzəmətli və şərəfli vəzifədə Naxçıvan Musiqi Kollecinə uğurlar arzulayır, 40 yaşın mübarək deyirik!***

*Səhifəni hazırladı:* Sara ƏZİMOVA

## Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair dövlət proqramının icrası davam etdirilir

*Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 10 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı”nın icrasını təmin etmək üçün hazırda muxtar respublika səhiyyəsində ardıcıl tədbirlər həyata keçirilir.*

Adıçəkilən proqram uşaqlar arasında xəstələnmənin, habelə sağlamlıq imkanlarının məhdudluğunun və ölümün səviyyəsinin azaldılmasına yönəldilməklə 2013-2017-ci illəri əhatə edir və uşaqların icbari dispanserizasiyasını həyata keçirən dövlət tibb müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsini, laborator müayinələri aparmaq üçün diaqnostik avadanlıq və reaktivlərlə təchiz edilməsini, kadrların təkmilləşdirilməsini, əhali arasında geniş maarifləndirmə işlərinin aparılmasını nəzərdə tutur.

Uşaqların icbari dispanserizasiyası hazırda davam edir. Cari ilin oktyabr ayında bu iş Naxçıvan şəhər uşaq müalicə müəssisələrində mütəşəkkil xarakter almışdır. Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının pediatr, stomatoloq, LOR, dəri həkimi, cərrah-travmatoloq, nevropatoloq, göz həkimi ixtisaslarından ibarət həkim briqadası Naxçıvan şəhərindəki 20 tam orta məktəbdə 10 min 541 uşaq müayinə edərək aşkar olunan xəstələri dispanser müşahidəyə götürmüşdür. Eyni zamanda sahə həkim briqadaları tərəfindən evlərdə dispanserizasiya işləri aparılmışdır.

Ay ərzində Şərur rayonunda 7 min 875, Babək rayonunda 2 min 250, Ordubad rayonunda 1283, Culfa rayonunda 1080, Şahbuz rayonunda 860, Kəngərli rayonunda 980, Sədərək rayonunda isə 560 nəfər olmaqla, muxtar respublika üzrə 21 min 760 nəfər dispanserizasiyadan keçmiş, 258 nəfər xəstə və xəstəliyə meyilli uşaq aşkar edilərək dispanser qeydiyyatına götürülmüşdür. 87 uşaq təkrar olaraq ixtisaslı müalicə üçün stasionar müayinələrə göndərilmişdir. Müayinə olunan uşaqların Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində registri yaradılmışdır.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Xidmətlərin tam elektronlaşdırılması torpaq mülkiyyətçilərinin işlərini asanlaşdırıb

“Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 15 iyul tarixli Fərmanının icrası ilə əlaqədar olaraq, Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun (DSMF) internet səhifəsi yaradılmışdır. Bu, məcburi dövlət sosial sığortahaqqı ödəyicilərinin məcburi dövlət sosial sığorta haqlarını plastik bankomat kartları vasitəsilə və ya banklarda nağd qaydada onlayn ödəməsinə, vətəndaşların fonda elektron müraciət etmələrinə və elektron xidmətlərin göstərilməsinə geniş imkanlar açmışdır.

Naxçıvan Muxtar Respublikasının Elektron Hökumət Portalına və Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun internet səhifəsinə təqdim olunmuş 20 elektron xidmətin sayı 15-ə çatdırılmışdır.

Bu ay aktivləşdirilən “Ailə-kəndli təsərrüfatının onlayn uçota alınması” və “Kənd təsərrüfatına yararlı torpaq sahəsi olan şəxsin onlayn uçota alınması” elektron xidmətləri vasitəsilə ailə-kəndli təsərrüfatları və mülkiyyətində kənd təsərrüfatına yararlı torpaq sahəsi olan şəxslər fonda gəlmədən, heç bir sənəd təqdim etmədən fərdi qaydada onlayn şəkildə sığortaedən kimi uçota alınacaq, onlara “Sığortaedənin uçot nömrəsi” veriləcəkdir.

Mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqlardan istifadə edən torpaq mülkiyyətçiləri əvvəllər Dövlət Sosial Müdafiə Fondunun şəhər və ya rayon şöbələrində uçota durmaq üçün ərizə, torpağa mülkiyyət hüququnu təsdiq edən sənədin notarial qaydada təsdiq olunmuş surətini, ailə üzvlərinin tərkibi və onların məşğulluğuna dair müvafiq qaydada təsdiq olunmuş sənədləri, ailə-kəndli təsərrüfatları isə fondun yerli orqanlarına ərizə, onların bələdiyyə orqanlarında uçotunu təsdiq edən sənədin və ailə-kəndli təsərrüfatı üzvlərinin statusunu təsdiq edən vəsiqənin surətini təqdim edirdilər. İndi isə kənd təsərrüfatına yararlı torpaq sahəsi olan torpaq mülkiyyətçiləri bu elektron xidmətlərdən istifadə etməklə əlavə vaxt itkisinin qarşısını ala bilərlər. Bunun üçün ***dsmf.nakhchivan.az*** internet səhifəsinə daxil olan hər bir torpaq mülkiyyətçisi həmin elektron xidmətlər bölməsində seçilmiş müvafiq xanaları dolduraraq sorğu edir. Təqdim edilmiş elektron ərizə formaları yoxlandıqdan sonra sığortaolunan üçün fərdi şəxsi hesab açılır və onun soyadı, adı, atasının adı, doğulduğu tarix və yer, cinsi və sosial sığorta nömrəsi (SSN) əks olunan dövlət sosial sığorta şəhadətnaməsi bir ay ərzində rəsmiləşdirilir. Qeyd etmək lazımdır ki, açılan pəncərədə elektron imza sahiblərinin elektron imza kartlarından istifadə etmələri, əgər istifadəçinin elektron imzası yoxdursa, istifadəçinin elektron hökumət portalından müvafiq məlumatları dolduraraq qeydiyyatdan keçməsi tələb olunur.

İndi məcburi dövlət sosial sığortahaqqı ödəyiciləri istənilən yerdə internetə daxil olaraq məcburi dövlət sosial sığorta haqlarını plastik kartlar vasitəsilə və ya banklarda nağd qaydada onlayn ödəyə bilərlər. 2015-ci ilin sentyabr ayında 2370 sığortaedən tərəfindən 88 min 190 manat məcburi dövlət sosial sığortahaqqı onlayn ödəmə sistemi vasitəsilə ödənilmişdir. Mülkiyyətində kənd təsərrüfatına yararlı torpaq sahəsi olan mülkiyyətçilərin məcburi dövlət sosial sığorta haqlarını rahat şəkildə ödəməsi üçün DSMF-nin müvafiq şöbələri və poçt şöbələri arasında müvafiq müqavilələr imzalanmışdır. Bununla da, kənd yerlərində yaşayan sığortaedənlərin məcburi dövlət sosial sığorta haqlarını heç bir yerə getmədən yaşadıqları yerdə ödəməsi üçün əlverişli şərait yaradılmışdır. Qeyd edək ki, 2015-ci ilin ilk 9 ayı ərzində mülkiyyətində kənd təsərrüfatına yararlı torpaqlar olan torpaq mülkiyyətçilərindən 514 min 950 manat məcburi dövlət sosial sığorta haqları daxil olmuşdur.

Məlumat üçün bildirək ki, “Sosial sığorta haqqında” Azərbaycan Respublikası Qanununun 14-cü maddəsinə əsasən, mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqlardan istifadə edən şəxslərin (hüquqi şəxs yaradanlardan, ailə-kəndli təsərrüfatı üzvlərindən başqa) əmək qabiliyyətli ailə üzvlərinin hər biri üçün (alınan əmlak və torpaq payı hesabına şəxsi yardımçı və digər təsərrüfatlar daxil olmaqla) torpaq sahəsinin hər hektarına görə ölkə üzrə müəyyən olunmuş minimum aylıq əməkhaqqının, yəni 105 manatın torpaqların 1-ci keyfiyyət qrupu üzrə 12 faizi (12 manat 60 qəpik), torpaqların 2-ci keyfiyyət qrupu üzrə 8 faizi (8 manat 40 qəpik), torpaqların 3-cü keyfiyyət qrupu üzrə 4 faizi (4 manat 20 qəpik), torpaqların 4-cü keyfiyyət qrupu üzrə isə 2 faizi (2 manat 10 qəpik) miqdarında məcburi dövlət sosial sığortahaqqı ödənilir.

Qeyd etmək lazımdır ki, elektron xidmətlər interaktiv olmaqla istifadə etmək də ödənişsizdir. Digər elektron xidmətlərin də yaxın vaxtlarda fəaliyyət göstərməsi üçün fond tərəfindən müvafiq işlər aparılır.

**Rza QARAYEV**
***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi***

***Azərbaycan xalqının yaşatdığı qədim sənət növləri içərisində xəttatlığın özünəməxsus yeri var. Tarixi mənbələrə əsasən X-XIII əsrlərdə formalaşan və daim inkişaf edən bu sənət İslam dünyasında geniş yayılıb. Təsadüfi deyil ki, ərəb hərflərinin müxtəlif formalarda yazılması ilə meydana gələn bu yazı sənəti günümüzdə həm də İslamın simvolu kimi qəbul edilir.***

## Qədim Naxçıvanın tarixi abidələrində iz qoyan xəttatlıq sənəti


Yusif Küseyir oğlu türbəsi

“Qurani-Kərim”i ən gözəl şəkildə yazmaq cəhdləri xəttatlıq sənətinin meydana gəlməsinə səbəb olub, buna bağlı olaraq təzhib, ebru və cild sənətləri yaranıb. Dekorativ-ornamental sənətlə qovuşan bu bədii yazı mədəniyyəti kitabları, sarayları, məscidləri, saxsıdan, metaldan, ağacdan və parçadan hazırlanan tətbiqi sənət nümunələrini bəzəməyə başlayıb. Tədricən xəttatlıq müsəlman dünyasında müstəqil və əsas sənət növlərindən birinə çevrilməklə savadlılıq dərəcəsinin göstəricisi kimi məşhurlaşıb. Görkəmli Azərbaycan xəttatlarından Mübarək şah Zərrinqələm Təbrizi, Şeyx Əhməd Sührəvərdi, Xacə Mir Əli ibn İlyas Təbrizi, Cəfər Təbrizi və bu kimi digər istedadlı insanlar bu sənətin inkişafında xüsusi rol oynayıblar.

Xəttatların fəaliyyəti nəticəsində müxtəlif xətt növləri yaradılıb. Bu barədə Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Əlyazmalar Fondunun direktoru Fəxrəddin Eylazovla söhbətimizdə o, bizə xəttatlıq sənətinin qədim növlərindən olan və Naxçıvan Muxtar Respublikasının tarixi abidələri üzərində daha çox rast gələnən kufi, nəsx, süls, şikəstə və nəstəliq xətləri haqqında məlumat verdi.

Fəxrəddin Eylazovun dediyinə görə, kufi xətti İraqın indiki Kufə şəhərində yayılıb. Bu səbəbdən də sonralar bu xətt “kufi” adlandırılıb. Əsasən, düz və sınıq cizgilərdən ibarət olan kufi xətti əvvəllər nöqtəsiz yazılsa da, sonralar daha da təkmilləşib. X əsrədək həm epiqrafikada, həm də paleoqrafiyada geniş tətbiq olunub. Kufi xəttinin özünün 4 əsas növü var: kufi nəsx, kufi süls, kufi həndəsi və kufi şikəstə. “Qurani-Kərim”in ilk nüsxələri də məhz kufi xətti ilə yazılıb. Əcəmi Əbubəkr oğlu Naxçıvaninin xəttatlıq məktəbinin özündən sonra qoyub getdiyi abidələrdə bu xətt növləri daha çox müşahidə olunur. Bunun bariz nümunəsini Naxçıvan şəhərində əzəmətlə ucalan Möminə xatın türbəsinin giriş qapısında görmək mümkündür.

Nəsx xətti barədə söhbət açan AMEA Naxçıvan Bölməsinin Əlyazmalar Fondunun direktoru bildirdi ki, bu xətt XII əsrdən etibarən kufi xətti təkmilləşdikdən sonra ibn Muğlə Şirazi tərəfindən ixtira edilib və bu ad ona özündən əvvəlki xətti, yəni kufi xəttini sıradan çıxardığı üçün verilib. Digər xətlərlə müqayisədə nəsx xətti özünün sadəliyi, rahat oxunuşu və asan yazılışı ilə diqqəti daha çox cəlb edir. Kufi xəttinin yerini tutan nəsx xətti meydana gəldiyi ilk gündən bədii və elmi əsərlərin yazılışında, üzünün köçürülməsində və dəftərxana işlərində geniş istifadə olunmağa başlanıb. Mədəniyyətlərin beşiyi olan Naxçıvan ərazisindəki daş kitabələrdə və yaxud əlyazmalarda bu xəttə daha çox rast gəlmək olur.

Süls xəttinin lüğəvi mənası “üçdəbir” deməkdir. Ərəb əlifbasında yazılan klassik xətt növlərindən olan süls xətti X əsrdə məşhur ərəb xəttatı Əbu Əli Məhəmməd ibn Muğlə tərəfindən yaradılıb. Bu xətt növündə hərflərin üçdəbir hissəsi əyri, qalan hissəsi isə düz cizgidə yazılır ki, bu da sözlərin bir-birinə toxunaraq yazılmasına imkan verir. Süls xətti özünəməxsus gözəlliyə malik olduğu üçün xətt ustadları onu “xətlərin anası” adlandırıblar.

XV-XVI əsrlərdə Naxçıvanda da geniş yayılan nəstəliq xətti XIV əsrin sonlarında məşhur xəttat Mir Əli Təbrizi tərəfindən nəsx və təliq xətlərinin əlaqələndirilməsi nəticəsində yaradılıb. Bu xətt növü, əsasən, əlyazma kitablarının üzünün köçürülməsində, məktub və sənədlərin yazılmasında geniş tətbiq olunub. Sonralar daha geniş yayılan nəstəliq xətti gümüşdən, bürüncdən, saxsıdan hazırlanan qablarının və bəzək əşyalarının bəzədilməsində daha çox istifadə edilib. AMEA Naxçıvan Bölməsinin Əlyazmalar Fondunda saxlanılan əlyazmalarda və Naxçıvan Dövlət Tarix Muzeyində mühafizə olunan kəşkülün üzərində həkk olunan xətt nümunələri nəstəliq xəttinə aiddir.

Naxçıvan şəhərində indiyədək qalan epiqrafik abidələr təsdiq edir ki, XVII-XVIII əsrlərdə kitabələrin yazılmasında bu xətdən daha geniş istifadə olunub.

Sadalanan xətt növlərindən hər biri orta əsr Azərbaycan memarlığının inkişafında dərin və silinməz iz buraxmış Əcəmi Naxçıvaninin yaratdığı memarlıq nümunələrində xüsusilə nəzərə çarpır. Naxçıvanda və ona yaxın ərazidə tikilən bir neçə abidədə Əcəmiyə xas olan xəttatlıq üsullarının bu və ya başqa şəkildə təzahürü Əcəmi məktəbində istifadə edilən xətt növlərinin hər zaman geniş şəkildə tətbiq olunduğunun əyani sübutudur.

Onu da qeyd edək ki, vaxtilə ölkəmizdə geniş vüsət alan və olduqca məşhur olan bu qədim sənət sonralar çap üsulunun meydana gəlməsi ilə sıradan çıxıb. Lakin buna baxmayaraq, Azərbaycan xəttatlarının xəttatlıq nümunələri gələcək nəsillər üçün bu gün də qorunur, onlar üzərində tədqiqatlar aparılır. Çünki əgər xəttatlar və xəttatlıq sənəti olmasaydı, bu gün biz həm də Nizaminin, Füzulinin, Tusinin yaradıcılığı barədə əsaslı məlumatlar ala bilməzdik.

**Rauf ƏLİYEV**

## Voleybol üzrə yoldaşlıq görüşü

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində voleybol üzrə yoldaşlıq görüşü keçirilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Voleybol Federasiyasının birgə təşkil etdiyi görüşdə “Sədərək” və “Culfa” komandaları qarşılaşıblar.

Görüşdən öncə çıxış edən federasiyanın sədr müavini Aydın Mirzəyev bildirib ki, son illər muxtar respublikada idman sahəsinə göstərilən diqqət və qayğı nəticəsində idmançılarımız keçirilən yarışlarda uğurlu nəticələr qazanırlar. Bu gün keçirilən voleybol yarışı, həmçinin mütəmadi olaraq təşkil olunan turnirlər bir daha sübut edir ki, muxtar respublikada idmanın inkişafı yüksək səviyyədədir. Aydın Mirzəyev görüşün qaydaları haqda iştirakçıları məlumatlandırıb və onlara uğurlar arzulayıb.

Daha baxımlı oyun sərgiləyən Sədərək voleybolçuları meydanı 3:1 hesablı qələbə ilə tərk ediblər.

Sonda iştirakçılara federasiya tərəfindən hədiyyələr təqdim edilib.

**Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 810